# Mətbuatımızın əsas meyarı azərbaycançılıqdır



Aydın MİRZƏZADƏ,
Milli Məclisin deputatı.

**Azərbaycan milli mətbuatı 150 il ərzində çox şərəfli, qürurverici yol keçmişdir. Bu uğurlu inkişafın kökləri isə minilliklərdən bəri formalaşmış milli-mənəvi dəyərlərimizə, cəmiyyətimizin maarifə, mədəniyyətə və mütərəqqi fikirlərə verdiyi yüksək dəyərə dayanır. Azərbaycan xalqı hər zaman təhsili, intellekti, ziyalılığı uca tutmuş, bu amilləri cəmiyyətin irəliləyişinin təməli kimi qiymətləndirmişdir.**

Hələ ilk qəzetin - "Əkinçi"nin nəşrindən etibarən Azərbaycan mətbuatı mütəmadi olaraq öz üzərinə düşən ictimai, maarifçi və vətəndaşlıq missiyasını ləyaqətlə yerinə yetirmişdir. Bu gün də Azərbaycan mediası dövlətçiliyimizin keşiyində duran ən mühüm və təsirli platformalardan biridir. Mətbuatımız görür, eşidir, düşünür, təhlil edir, cəmiyyətə dəyərli informasiyalar ötürür, ziyalılığı təşviq edir, diqqəti tərəqqini dəstəkləyən proseslərə yönəldir. İllərdir bu sahədə çalışan, peşəsinə sadiq, vicdanlı və məsuliyyətli jurnalistlərimiz, media işçilərimiz mətbuatımızın əsl dayağıdırlar. Onların dövlətçiliyə bağlılığı, milli maraqlara sədaqəti, ictimai məsuliyyəti və ziyalı mövqeyi bu gün Azərbaycan mediasını oxunaqlı, nüfuzlu və ictimai rəydə xüsusi çəkisi olan bir instituta çevirib. Azərbaycan mediası bu gün informasiya savaşının ön cəbhəsindədir, cəmiyyətin problemlərinə biganə qalmayan, həqiqəti yazmaqdan çəkinməyən mətbuat ənənəmiz var. O, yalanı və böhtanı ifşa edir, manipulyasiyaları üzə çıxarmaqda yüksək peşəkarlıq nümayiş etdirir. Çünki Azərbaycan mətbuatının əsas meyarı azərbaycançılıqdır. Bu, həqiqətə və ədalətə bağlılıq, milli maraqlara sədaqət, gənclərin dəstəklənməsi və dövlətimizin inkişaf yoluna töhfə vermək deməkdir. Bu amal uğrunda çalışan, qələmlə tarix yazan jurnalistlərimizin dövlətə və xalqa sədaqəti, sözə münasibətdəki səmimiyyəti mətbuatımızın sütunudur.

Mətbuatımıza beynəlxalq aləmdə də böyük maraq var. Daxili auditoriya üçün hazırlanan yazılar, reportajlar və təhlillər bir çox hallarda beynəlxalq səviyyədə də diqqətlə izlənir və müzakirə olunur. Bu isə Azərbaycan mediasının regional və qlobal informasiya mühitində artan təsirinin göstəricisidir. Bu həqiqət də iyulun 19-21 Şuşada keçirilmiş III Qlobal Media Forumu çərçivəsində Xankəndidə Prezident İlham Əliyevlə görüş zamanı bir daha öz təsdiqini tapdı. Dövlət başçısı çıxışında bildirdi: "Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur. Mən bu tezisə şərh vermək istəmirəm. Amma fakt odur ki, bu gün Azərbaycan mediasını bir çox ölkələrdə müxtəlif səviyyələrdə oxuyurlar, mediada gedən yazıları, məqalələri təhlil edirlər. O məqalələrin Azərbaycanın rəsmi mövqeyinə nə dərəcədə uyğun olub-olmaması ilə bağlı da fərziyyələr irəli sürülür. Bu, deməyə əsas verir ki, mediamız doğrudan böyük inkişaf yolu keçib".

Cənab Prezidentin mətbuatı daim izləməsi, medianı ictimai rəyin formalaşmasında mühüm faktor kimi qəbul etməsi, dövlətin jurnalistlərə verdiyi dəyəri əyani şəkildə ortaya qoyur. Demək ki, jurnalistlər öz vəzifələrini milli əhəmiyyət daşıyan məsuliyyət kimi dərk edirlər.

Azərbaycan mətbuatı sevilir, izlənilir və cəmiyyətin mühüm düşüncə platforması kimi qəbul olunur. Əminik ki, gələcəkdə də Azərbaycan mediası müstəqil dövlətimizin tərəqqisi, haqq səsimizin ucaldılması və milli maraqlarımızın qorunması yolunda qətiyyətlə, cəsarətlə və ləyaqətlə fəaliyyət göstərəcək. ■

Respublika .- 2025.- 23 iyul (№ 150).- S.6.